AZƏRBAYCAN www.azerbaijan-news.az

Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 313 **QƏRAR** Bakı şəhəri, 23 avqust 2016-cı il

# Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" 2010-cu il 7 iyun tarixli 107 nömrəli qərarının və bəzi qərarlarının struktur elementlərinin ləğv edilməsi barədə

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxsin yaradılması haqqında" 2016-cı il 3 fevral tarixli 760 nömrəli Fərmanının 7.2-ci, "Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Nizamnaməsinin təsdiq edilməsi haqqında" 2016-cı il 10 mart tarixli 828 nömrəli Fərmanının 2.2-ci və "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 4 mart tarixli 135-VQD nömrəli Qanununun tətbiqi barədə" 2016-cı il 9 mart tarixli 1872 nömrəli Sərəncamının 1.2-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin xərclər smetası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 17 avqust tarixli 131 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, N 8, maddə 527; 2010, N 7, maddə 709) 2-ci hissəsi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 6 oktyabr tarixli 149 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 10, maddə 866; 2006, N 3, maddə 303, N 5, maddələr 463, 468, N 8, maddə 731, N 9, maddə 822, N 11, maddə 994; 2007, N 1, maddə 50, N 10, maddə 1021, N 12, maddələr 1343, 1352; 2008, N 2, maddə 130, N 4, maddə 308, N 10, maddə 936; 2009, N 1, maddələr 22, 32, N 2, maddələr 144, 150, N 9, maddələr 736, 753; 2010, N 4, maddə 369, N 11, maddə 1048; 2011, N 1, maddə 66, N 4, maddə 365; 2012, N 9, maddə 934; 2013, N 8, maddə 1000, N 10, maddə 1202; 2014, N 1, maddələr 59, 69, N 2, maddə 201, N 5, maddə 557, N 6, maddələr 745, 747, N 9, maddə 1130; 2015, N 2, maddə 227, N 3, maddələr 328, 337, N 6, maddələr 774, 781, N 7, maddə 890, N 11, maddə 1412; 2016, N 3, maddə 595, N 4, maddələr 806, 831, N 5, maddələr 941, 955) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - "Büdcə xərclərinin inzibati təsnifatı"nın "İcra hakimiyyəti orqanları" bölməsinin iyirmi üçüncü sətri ləğv edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 28 avqust tarixli 136 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, N 8, maddə 861, N 9, maddə 923, N 10, maddə 1021, N 12, maddə 1331; 2009, N 1, maddələr 22, 32, N 2, maddə 150, N 4, maddələr 282, 293, N 8, maddələr 674, 675, 680, N 10, maddələr 846, 852, 856; 2010, N 2, maddələr 146, 161, N 11, maddə 1040; 2011, N 1, maddə 54, N 5, maddə 447, N 9, maddə 855; 2012, N 5, maddə 475, N 8, maddə 817, N 10, maddə 1028, N 11, maddə 1204, N 12, maddələr 1363, 1388; 2013, N 1, maddə 73, N 8, maddələr 1015, 1038, N 10, maddə 1219; 2014, N 1, maddə 69, N 3, maddə 312, N 6, maddə 736, N 7, maddə 918, N 10, maddə 1308; 2015, N 2, maddə 227, N 5, maddə 612, N 6, maddə 799, N 11, maddə 1413; 2016, N 2, II kitab, maddə 381, N 4, maddələr 781, 831; 2016, N 5, maddə 955; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 iyul tarixli 262 nömrəli qərarı) ilə təsdiq edilmiş "İnzibati orqanların Təsnifatı"nın 7.5-ci bəndi və 28-ci hissəsi ləğv edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 dekabr tarixli 277 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, N 12, maddə 1115; 2009, N 2, maddə 153, N 4, maddə 282, N 7, maddə 605, N 8, maddələr 674, 680, N 10, maddələr 846, 852, 856; 2010, N 1, maddə 60, N 2, maddələr 146, 161, N 10, maddələr 906, 912, N 11, maddə 1040; 2011, N 1, maddə 66, N 5, maddə 446, N 9, maddələr 856, 862; 2012, N 5, maddə 479, N 8, maddə 818, N 10, maddə 1027, N 11, maddə 1205; 2013, N 1, maddə 74, N 8, maddələr 1014, 1037; 2014, N 1, maddə 69, N 3, maddə 313, N 6, maddə 736, N 7, maddə 919, N 10, maddə 1308; 2015, N 2, maddə 227, N 5, maddə 611, N 6, maddə 800, N 11, maddə 1414; 2016, N 1, maddə 171, N 2, II kitab, maddə 382, N 3, maddə 608, N 3, maddə 608, N 4, maddələr 782, 831, N 5, maddə 955; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 iyul tarixli 263 nömrəli qərarı) ilə təsdiq edilmiş "Dövlət orqanlarının aparatının (və ya onların fəaliyyətini təmin edən qurumların) və onun bölmələrinin adları"ndan "Azərbaycan Respublikası Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin Aparatı" və "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidməti" sözləri çıxarılsın.

5. "Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin kollegiyasının tərkibi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 7 iyun tarixli 107 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 6, maddə 552; 2011, N 8, maddə 784) ləğv edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***